# V - Yiğitlik Koşukları

## (Qehremanlıq Neğmeleri)

**(Ehliman Ahundov,** Azerbaycan Halk Yazını, Türk çeviri yazısına aktaran Semih Tezcan, Ankara-1978 s. 77-93)

## 'Köroğlu,, Dastanından

### DAĞLAR QOYNUNDA

Meni binadan besledi,
Dağlar qoynunda qoynunda,
Tülek[1] terlanlar2 sesledi,
Dağlar qoynunda qoynunda.

Dolanda igid yaşıma,
Yağı çıxdı savaşıma,
Deliler geldi başıma,
Dağlar qoynunda qoynunda.

Sefer eledim her yana,
Şahları getirdim cana,
Qıratım geldi cövlana[3],
Dağlar qoynunda qoynunda.

Kesdim yollar, vurdum karvan,
Çekib soydum çox bezirgan,
Düşmenlere uddurdum qan,
Dağlar qoynunda qoynunda.

Esir çekdim Çenlibel'e,
Qoç Koroğlu düşdü dile,
Xan Eyvaz menimle bile,
Dağlar qoynunda qoynunda.

### MEYDAN BAŞINA

Qıratım kişneyib girer,
Atılar meydan başına,
Qılmc çekib delilerim,
Od eler düşman başına.

Yaxşı er yaxşı at miner,
Ortada gösterer hüner,
Atılanda nize, şeşper,
Qaldırar qalxan başına.

Ger girişsem çal-ha-çala,
Quş gerekdi qanad sala,
Çekib uçurdaram qala,
Bey, paşa, sultan başına.

Dava gününde Eyvaz xan,
Yüz yağıya vermez aman,
Dolanıb olasan qurban,
Bir bele oğlan başına,

İgidde olan namus, ar,
Dar günde görer gücü kar,
Koroğlu, deliler, Nigâr,
Yığılar dövran başına.

1. kurnaz 2. doğan, şahin 3. dolanma

## MERD DAYANAR

Merd dayanar, nâmerd qaçar,
Meydan gumbur gumburlanı,
Delilerim meydan açar,
Düşmen gumbur gumburlanı.

Qoç igid bığın[1] buranda,
Çekib yay oxun quranda,
Şeşper qalxana vuranda,
Qalxan gumbur gumburlanı.

Top açılar qalasmdan,
Haqq saxlasm balasından,
Koroğlunun neresinden,
Her yan gumbur gumburlanı.

## QOÇ KOROĞLU

İgidler oylağı o Çenlibel'de,
Daşdan qala quran qoç Koroğludu,
Kinli paşalara meydan oxuyan,
Çox köhlenler[2] yoran qoç Koroğludu.

Düşmenin üstüne quş tek aldıran,
Aslanlar dişinden ovu saldıran,
Xaqanlar başına şeşper çaldıran,
Qulac qollar buran qoç Koroğludu.

Dağları, daşları duman bürüse,
Qılınclar pas atıp qunda çürüse,
Misir, İstanbul, Şam tamam yürüse,
Tek qabaqda duran qoç Koroğludu.

Qayada tor qurub terlanlar tutan,
Yüz yağmı birden qol qola çatan,
Ereb at döşüne serdarlar qatan,
Er bağırlar yaran qoç Koroğludu.

Cünûn, eyleşibler erler qarşında,
Alaylar boşlanar ter savaşında,
Yeddi min yeddi yüz deli başında,
Şahlar üste varan qoç Koroğludu.

## QIRAT, GEL

Çenlibelden seni deyib gelmişem,
Alma gözlüm, qız birçeklim[3] Qırat, gel,
Demir libas, polad geyib gelmişem,
Alma gözlüm,qız birçeklim Çhrat, gel.

Ezelden bileydim senin halını,
Kesdireydim eşrefinden nalını,
Toxudaydım yüz gözele çulunu,
Alma gözlüm, qız birçeklim Qırat, gel.

Axurda qalar mı arpa sehere,
Üzengiler ne yaraşır yehere[4],
Deliler salmışdı meni gehere[5], Alma
gözlüm, qız birçeklim Qırat, gel,

Menim atım atım-atım atılar,
Qulaqları qarğı kimi çatılar,
Ucuzluqda min tümene satılar,
Alma gözlüm, qız birçeklim
Qırat, gel.

## MENEM

İsterem ki, tamyasan men merdi,
Çekib seherleri taladan[6] menem,
Dava günü igid behsi düşende,
Cidanı cidaya[7] çaladan[8] menem.

Seyirdib Qıratı, girrim meydana,
Qızıb ceng elerem merd i merdana,
Hoy hoy ile qılıç çekib düşmana,
Leşi leş üstünde qaladan menem.

Koroğluyam, men qovğadan doymaram,
Qisasımı bey, paşaya qoymaram,
Qovğa günü yüz nâmerdi saymaram,
Merde öz qanını yaladan menem.

## DAVA GÜNÜ

Delilerim, bu gün dava günüdü,
Müxennet ölkesi talanmaq gerek,
Merd igidler qovğa günü düşende,
Özü öz qanına bulanmaq gerek.

Merd igidler, ne're çekin davada,
Laçın kimi sona alın yuvada,
Misri qılmc cövlan qılsm havada,
Bağırsaq cemdek dolanmaq gerek.

Qoç Koroğlu ne'resinden tanım,
İçer ovuc ovuc düşmen qanmı,
Kesin paşasını, asın xanım,
Leş leşin üstüne qalanmaq gerek.

## BENZERSEN

Üc yaşından beş yaşına varanda,
Yenice açılan güle benzersen,
Beş yayşından on yaşına varanda,
Arıdan saçılmış bala benzersen.

On dördünde sevda yener başına,
On beşinde yavan girer duşuna,
Çünki yetdin iyirmi dörd yaşına,
Boz bulanlıq axan sele benzersen.

Otuzunda keklik kimi sekersen,
İgidlik eleyib qanlar tökersen,
Qırxında eli haramdan çekersen,
Sonrası ovlanmış göle benzersen.

Ellisinde elif qeddin[9] çekili,
Altmışında ön dişlerin tökülü,
Yetmişinde qeddin, belin bükülü,
Karvanı kesilmiş yola benzersen.

1. bıyık 2. küheylan 3. perçem 4. eğer 5. öfke 6. yağma 7. mızrak 8. çatmak 9. boy

Sekseninde sinir yener dizine,
Doxsanmda qubar qonar gözüne,
Koroğlu der, çünki yetdin yüzüne,
Uca dağ başında kola benzersen.

SULTANIM

Qoç quzundan doğan quzu qoç olur,
Qoçaklardan qoçaq olur, sultanım.
Qovğa günü qoç igidler şad olur,
Müxennetler nâçaq olur, sultanım.

Qoç igidler öyüd verer özüne,
Müxennetin özü nedi, sözü ne,
Bir çox igid düşmanının gözüne,
Ucu almaz bıçaq olur, sultanım.

Bir çox igid bir orduya daldadı,
Qarı düşmen sağdadı, ya soldadı,
Qaçar qaçar reqibini aldadı,
Çayıtmamış[1] haçaq[2] olur, sultanım.

Türk atının keherinden[3], göyünden,
Qaçar miner yüyreyinden, yeyinden,
Bir çox igid xeber aldı beyinden,
Beter savaş haçaq olur, sultanım.

Koroğlu der yarm qovğa qurulu,
Qoç igidin evvel atı vurulu,
Acıqlanır üze qalxan burulu,
Sivri qılmc saçağ olur, sultanım.

QOYMARAM

Yığılsa mexluqat, qurulsa mehşer,
İsrafil surunu çala qoymaram,
Çekerem qılmcı, girrem meydana
Uçurdaram, burda qala qoymaram.

Men âşıq tehledenem[4],
Tek evli mehledenem.
Arasbar terlanıyam[5].
Sonalar tehledenem.

Xeber olsun Bayazid'in eline,
Düşmemişiz men delinin eline,
Hoy deyib minerem Qırat beline,
Bu qisası Rüstem-Zala qoymaram.

Men âşıq Iengeridi6,
Gemidi, lengeridi,
Çox bilib, az danışmaq,
İgidin lengeridi.

Bir igid ki, atasından var ola,
Tülek terlan qürbet elde sar ola,
Bayazid'de nece gözel var ola,
Aya aparmasam, ile qoymaram.

Badeler içmişem hele serxoşam,
Qorx o günümden ki qaynayam, coşam,
Tülekler saldıran bir terlan quşam,
Şarlar şikarımı ala qoymaram.

Men âşıq ovun ovlar,
Gözlerin ovun ovlar,
Alvız'dan qalxan terlan,
Murğuz'dan ovun ovlar.

Qırram qayaları, yıxaram dağı,
Xanlar zeher içer, sultanlar ağı,
Çenlibel'di qoç Koroğlu oylağı,
Şah da gelse Çenlibel'e qoymaram.

Men âşığam şonqara[7],
Şikâr gerek şonqara,
Cik cik deyen serçeler,
Neyler şahin şonqara.

NİYE DONDU

Ala gözlü Nigar Xanım,
Üzüm menden niye döndü?
Şene qurban şirin canım,
Üzün menden niye döndü?

Qoyun otlar quzu ile,
Ayağının tozu ile,
Müxennetin sözü ile,
Üzün menden niye döndü?

İgidin yatmasın baxtı,
Yana çevrilmesin taxtı,
Koroğlunun melul vaxtı,
Üzün menden niye döndü?

## 'Qaçaq Nebi, Dastanından

QAZAMAT8 İSTİDİ

Qazamat istidi yat bilmerem, ;.
Düşmenim güclüdü batabilmirem,
Ayaqda qandalaq[9] qaçabilmirem,
Menim bu günümde gelesen, Nebi,
Qazamat dalını delesen, Nebi!

Qazamat istidi ağrıyır başım,
Axır gece gündüz qanh gözyaşım,
Olubdu daş divar menim sirdaşım,
Menim bu günümde gelesen, Nebi,
Qazamat dalını delesen, Nebi!

1. dönmek 2. ne zaman 3. doru 4. gözlemek 5. doğam, şahini 6. onur 7. akdoğan 8. hapishane 9. pıranga

Men gelende şamamalar[1] gülüdü,
Dörd yanımı atlı qazax bürüdü,
Yazıq canım qazamatda çürüdü,
Menim bu günümde gelesen Nebi,
Qazamat dalrnı delesen, Nebi!

MERD İGİDDİ

Nebi'nin birçeyi oyma oymadı,
O Hecerden, Hecer ondan doymadı,
Qırdı beyi, ham, birin qoymadı,
Deyirler, igiddi o nadan Nebi,
Tüfengi havada oynadan Nebi!

Qaçaq Nebi ile Mehdi qardaşdı,
Onların mekanı qayadı, daşdı,
İyidler içinde hamıdan başdı,
Deyirler, igiddi o nadan Nebi,
Tüfengi havada oynadan Nebi!

Nebi merd igiddi, qoçaq oğlandı,
Dosta, yoldaşlara çox mehribandı,
Menim de bu canım ona qurbandı,
Deyirler, igiddi o nadan Nebi,
Tüfengi havada oynadan Nebi!

Ne düşübsüz f ağır xalqm canına,
Rehminiz gelmeyir axan qanına,
Merd merdana durub geldim yanına,
Beyler üçün anam doğub merd meni!
Bacarırsan indi özün tut meni.

Merd oğulam, beyden, xandan qaçağam,
Düşmenin gözüne iti[2] bıçağam.
Yoxsul üçün ipek kimi yumşağam,
Sizin üçün anam doğub sert meni,
Bacarırsan indi özün tut meni.

Gel Nebi'nin yaxşı bax sen boyuna,
Evini dönderer matem toyuna,
Sizin kimi sürü sürü qoyuna,
Anam doğub iti dişli qurd meni,
Bacarırsan indi özün tut meni!

BAC ALAR

Gümüş stekanlı[3], qızıl tavalı,
Uşaqlara deyin, döysün qavalı,
Atlananda qoburnatdan havalı,
Yağıdı soltana,bey xana Nebi,
Bac alar, bac vermez divana Nebi!

Maltepe'de qend[4] i şeker ezdiler,
Qanvoyları yolun üste düzdüler,
Nebi'nin admı qaçaq yazdılar,
Yağıdı soltana, bey xana Nebi,
Bac alar, bac vermez divana Nebi!

Nebi'nin Bozarı delidi, deli,
Çiyninde aynalı, belinde eli,
Nebi'nin kömeyi o mövlam
Eli, Yağıdı soltana, bey xana Nebi,
Bac alar, bac vermez divana Nebi!

Ön altı yaşında o qaçaq oldu,
Düşmenin gözüne bir pıçaq oldu,
İgidler içinde baş qoçaq oldu,
Yağıdı soltana, bey xana Nebi,
Bac alar, bac vermez divana Nebi!

ÇISASALIBDI

Nebi'nin bığları eşme eşmedi,
Papağı gülleden deşme deşmedi,
Nebi'nin atını heç at keçmedi,
Beyleri qorxuya salıbdı Nebi,
Qoburnatdan qisas alıbdı Nebi!

Bozatm ayağı aladı, ala,
Başına gelenler beladı, bela,
Bey xanlar elinden hey çeker nala,
Beyleri qorxuya salıbdı Nebi,
Qobumatdan qisas alıbdı Nebi!

Nebi çıxıb qızıl pulu toplayır
Aparıb yoxsula, aca paylayır,
Nebi'ni dostları qonaq saxlayır
Beyleri qorxuya salıbdı Nebi,
Qoburnatdan qisas alıbdı Nebi!

AY QAÇAQ NEBİ

Nebi'nin gözleri aladı, ala, Qoç
Nebi olubdu düşmene bela,
Nebi'nin meskeni uca bir qala,
Qoy sana desinler, ay Qaçaq Nebi,
Heceri[6] özünden, ay qoçaq Nebi!

Dağların başları dumandı, duman,
Nebi'den çekirler zalımlar aman,
Qoç Koroğlu kimi Nebi qehreman!
Qoy sana desinler, ay Qaçaq Nebi,
Heceri özünden, ay qoçaq Nebi!

Nebi'nin qaşları qaradı, qara,
Düşmen üreyine vurubdu yara,
Beyleri, xanları getirib zara,
Qoy sana desinler, ay Qaçaq Nebi,
Heceri özünden, ay qoçaq Nebi!

Gün çıxıbdı günortanm yerine,
Hecer xanım qalxıb atın beline,
Eşrefi, mirvarı düzüb teline,
Qoy sana desinler, ay Qaçaq Nebi,
Heceri özünden, ay qonçaq Nebi!

l.güzel kokulu bir kavun 2. hızlı 3. cam bardak 4. kelle şeker 5. omuz 6. Kaçak Nebi'nin eşi

## AMANGÜNÜDÜ

Gorus'un qaşmda yıxılıb yatdım,
Ehtiyatı elden kenara atdım,
Düzü, xecaletden qan tere batdım,
Bozat, qurtar meni, aman günüdü,
Yoldaşlarım darda yaman günüdü!

Bozat, seni ser tövlede bağlaram,
And içirem, seni meKmer[1] çullaram,
Eğer meni bu davadan qurtarsan,
Qızıldan, gümüşden seni nallaram,
Bozat, qurtar meni, aman günüdü,
Yoldaşlarım darda yaman günüdü!

Gümüşden döydürrem senin nalını,
Yüz gözele hördürerem[2] yalını,
Sen gel qoç Nebi'nin pozma halını,
Bozat, kurtar meni, aman günüdü,
Yoldaşlarım darda yaman günüdü!

## BESLEDİ

Nebi bizim yerde bir can besledi,
Kakili[3], birçeyi desde destedi,
Elinde aynalı, atın üstedi,
Qoy sana desinler, aynadan Nebi,
Divanı dalınca oynadan Nebi!

Qazaxlar geyibdi qırmızı tuman,
Nebi'ni tutalı geldi bir duman,
Ses ucaldı, kömek et, Allah aman!
Qoy sana desinler, ay nadan Nebi!
Divanı dalınca oynadan Nebi!

Araz qırağında[4] bir gülle atdı,
Otuz iki qazağı qol qola çatdı,
Gömgöy çemenlikde uzanıb yatdı,
Qoy sana desinler, ay nadan Nebi,
Divanı dalınca oynadan Nebi!

Göytepede qend i şeker ezdiler,
Qanvoyları yol üstüne düzdüler,
Nebi'nin adını qaçaq yazdılar,
Qoy sana desinler, ay nadan Nebi,
Divanı dalınca oynadan Nebi!

Nebi çıxıb Gorus'un qaşma,
Dostun, aşnasm yığıb başına,
Aynalı tüfengi basıb döşüne,
Qoy sana desinler, ay nadan Nebi,
Divanı dalınca oynadan Nebi!

Her terefden güçlü qoşun[5] yürüdü,
Nebi'ni bir deste qazax bürüdü,
Hecer xanım qazamatda çürüdü,
Qoy sana desinler, ay nadan Nebi,
Divanı dalınca oynadan Nebi!

# "Settarxan"dan

## FERRAC OĞLAN

Settarxan'm eyneyi[6],
Qur'an'dandır köyneyi,
Salyan'dan gelir kömeyi[7],
Elac oğlan, elac[8] oğlan,
Ebülfezle ferrac[9] oğlan.

Sağ ol seni, Benderbalı,
At oynayar, töker nalı,
Qılıncından damar qanı,
Elac oğlan, elac oğlan,
Ebülfezle ferrac oğlan.

Settarxan'ı at üstünde gören var,
Siyah zülfün dal gerdende hören var,
Onlar çoxdu, bize kömek duran var,
Elac oğlan, elac oğlan,
Ebülfezle ferrac oğlan.

Settarxan getirib araba qendi,
Tamam sirab[10] edib seheri, kendi,
Qurub düşmenlere o, yene fendi,
Elac oğlan, elac oğlan,
Ebülfezle ferrac oğlan.

Settarxan'am, ayrılmaram elimden,
Qurtarmaz davada yağı elimden,
Eyleyerem ne çıxıbsa dilimden,
Elac oğlan, elac oğlan, Ebülfezle
ferrac oğlan.

Settarxan minib boz attı,
Qoynuna qoyub saati,
Çıxar Tebriz camaatı,
İnşallah cahad eyler,
Milleti rahat eyler.

## OLDUN

Azeri elinin qehreman oğlu,
Azadlıq yolunun qurbanı oldun,
And içdin vetene, igid Settarxan,
Yurdunun vüqarııı, imanı oldun.

Veten xainile eledin cengi,
At saldın meydana, çekdin üzengi,
Düşmenin qorxudan saraldı rengi,
Onların qetlinin fermanı oldun.

1. kadife 2. örürmek 3. kâkül 4. kıyı 5. ordu 6. sırtı 7. yardım 8. çare 9. kaygıları dağıtan 10. doyurmak 11. vakar

Sen idin serkerde Azerbaycana,
Azadlıq yolunda durdun merdana,
Quduz celladları boyadm qana,
Öz ana yurdunun sultanı oldun.

Sen yaratmaq üçün gözel çağları,
Güneş tutsun dedin uca dağları,
Qızıl güller açdı Tebriz bağları,
O azad bağların bağbanı oldun.

Şö'lesi[1] sen oldun bağlı gözlerin,
Qüweti sen oldun möhkem dizlerin,
Güneşi sen oldun güler üzlerin,
Temiz üreklerin vicdanı oldun.

## "Qaçaq Rüstem"den

SÖNDÜRDÜN

Gelin gedek Xoruzlunun düzüne düzüne
Ay, gülle deyib Urustamın dizine dizine,
Xeber getsin Cavad xamn qızma qızına,
Ay, nece qıydın Urustamı[2] öldürdün,
Zalim oğlu, şam çırağı söndürdün söndürdün,
nâmuradı öldürdün.

Açılıbdı Xoruzlu'nun çiçeyi çiçeyi,
Ay, qana batıb Urustam'ın birçeyi birçeyi,
Yığılıbdı Cavad xanm göyçeyi göyçeyi[3],
Ay, nece qıydm Urustamı öldürdün,
Zalim oğlu, şam çırağı söndürdün, söndürdün,
nâmuradı öldürdün.

Gedin atama deyin ağlamasın, düşgündü düşgündü,
Ay gülle deyen
Urustam'a üç gündü, üç gündü,
Qannı köpük deryalardan daşğmdı daşğındı,
Ay, nece qıydın
Urustam'ı öldürdün,
Zalim oğlu, şam çırağı söndürdün söndürdün,
nâmuradı öldürdün.

1. ışık 2. Rüstem 3. güzel

V